SİZDƏNƏM MƏN

TÜRKDAŞLARA

Sizə mən bağlıyam, ey sevgili yurddaşlarımız –,
Ey ulus eşqinə oddan keçən oddaşlarımız!

Sizə bağlı, məni candan yaşadan qayğılarım,
Hisslərim, duyğularım, sevgilərim, sayğılarım.

Sizə mən bağlıyam, ey nəğməli çağdaşlarımız,
Ata ruhlu, ana şəfqətli ocaqdaşlarımız!

Sizdənəm, mən ey adı dillərə düşmüş obalar,
Ey çocuqlar, nənələr, qızlar, oğullar, babalar!

Dili bir, nəğməsi bir doğma ulusdaşlarımız,
On min il öncə möhürlənmiş ulus daşlarımız!

Sizdənəm, mən, qoca tarixi yazanlar, sizdən,
Sizdənəm, ey bizim ərdəmli ozanlar, sizdən!

Ruhumun Çənlibel üstə qanad açmış Qıratı
Hayqırır göylərə dastan, ağı, laylay, bayatı.

Haydı əmriylə Koroğlum atılıb vəcdə gələr,
Hay verər qurd kimi ard-arda düzülmüş dəlillər.

Orda yay, qalxan, ozan, türkü, qopuz, ud vardır,
Orda "Orxon-Yenisey" var, Dədə Qorqud vardır!

Sizdənəm, mən, eşidib söylədiyim nəğməni siz,
Sizə yad bilməyin aləmdə, siz Allah, məni siz!

1984

HƏYATDA

Ölməli insanlar ölən deyildir,
Onların dərdinə qalan tapılmaz.

Cəfənglər yazanlar ölən deyildir,
Ərdəmli ozanlar hissə qapılmaz.

Cılızlar bu qədər olmasaydılar,
Ululer bu qədər olmazdı yadda.

Ölməli olanlar qalmasaydılar,
Qalmalı olanlar qalmazdı yadda.

Dünya işlərini asan görmədim,
Min hikmət gizlənir oyunlarında.

Ha baxdım, bir kiçik nöqsan görmədim
Dahi təbiətin qanunlarında.

Nədir alçaqların sevinci, dərdi,
Kim deyir, nadanlar qalır həyatda?!

Ölməli insanlar gəldi-gedərdi,
Qalmalı insanlar qalır həyatda.

1984

ADİ GÜN BİLMƏYİN

Adi gün bilməyin keçən günləri,
Bu gün də tarixi günlərdən biri,

Dörd milyard yurddaşı olan bu dünya,
Yayıb şöhrətini Günəşə, Aya.

Hər gün yer üzünə min insan gəlir,
Sənətkar, filosof, qəhrəman gəlir.

Bir səfa gətirir bu xoş gəlişlər,
Sabah tarix olur bugünkü işlər.

Tarixə düşəcək bir sabah bu gün,
Bu gün bir dahinin doğulduğu gün.

Bir bayram günüdür ilin hər günü,
Hər gün bir insanın bir zəfər günü.

Bu gün sabah üçün tarixi gündür,
Bu gün bir mahalda toydur, düyündür.

Bu gün bir igidin öldüyü gündür,
Bu gün bir aşiqin güldüyü gündür.

Kiminin ulduzu batacaq bu gün,
Kimi arzusuna çatacaq bu gün.

Bu gün də tarixi günlərdən biri,
Adi gün bilməyin keçən günləri.

1984

ŞAİRƏ NƏ GƏRƏK

Şairə nə geniş otaqlar gərək,
Nə də tərifçilər, yaltaqlar gərək.

Qəlbi qəlbilərdə vuran şairin,
Ötsün türküsünü dodaqlar gərək.

Ona mükafatlar gərək deyildir,
Ona dağlar gərək, bulaqlar gərək.

Onun qanad çalan tərlan ruhuna,
Günəşlə aylanan oylaqlar gərək.

Şairə, şairə yasaq olmayan,
Şerə yad olmayan qulaqlar gərək.

Şairə bir könül xoşluğu, bir də
Bir qələm, bir də ağ varaqlar gərək.

1985

* * *

Mənim şeirlərimdən qopan, mənim səsimdir,
Nə söyləməsə, candan yüksələn həvəsimdir.

Ulus ən ulu sevgim, yurd ən müqəddəsimdir,
Azərbaycan odumdur, suyumdur, nəfəsimdir.

Onsuz gülüstan olsa qürbətdə, məhbəsimdir,
Dünyanı dolaşmışam, öz torpağım bəsimdir!

1985

DÜNYA ULU DÜNYADIR

Dünya evi, bir ev ki,
Sönməz odudur sevgi,
Duyduqca onu, sev ki,
Dünya ulu dünyadır,
İnsan dolu dünyadır.

Qoynunda həyat çağlar,
Dağlar, dərələr, bağlar,
Can verməli irmaqlar,
Dünya ulu dünyadır,
İnsan dolu dünyadır.

Ay hüsnünə həsrətdir,
Ulduzlara ziynətdir,
Başdan-başa cənnətdir,
Dünya ulu dünyadır,
İnsan dolu dünyadır.

Alqışlar onu göylər,
Aləmləri cəlb eylər,
Heyranı olan söylər:
Dünya ulu dünyadır,
İnsan dolu dünyadır.

Dünya nə demək, anlar
Candan sevən insanlar,
Duymaz onu nadanlar.
Dünya ulu dünyadır,
İnsan dolu dünyadır.

1985

GÖZƏL İZMİR, GÖZƏL BAKI

Sevincimiz aşdı, daşdı,
Xəyalımız dağlar aşdı,
Qardaşlarım, qardaşlaşdı
Gözəl İzmir, gözəl Bakı.

Xəzər sevincdən ağladı,
Araz Kür kimi çağladı,
Ömürlük peyman bağladı
Gözəl İzmir, gözəl Bakı.

Səslədi dədə Qorqudu,
Ulusun qopuzu, udu,
Rüzgarlar, sular oxudu
Gözəl İzmir,gözəl Bakı.

Yol uzanar, ömür gülər,
Gedər sıtmalı bürkülər,
Ötər qanadlı türkülər
Gözəl İzmir, gözəl Bakı.

Çınladı saz, dindi kaman,
Amandır, görməsin duman,
İki gözüm – iki liman
Gözəl İzmir, gözəl Bakı.

Yazaydı Füzuli şeir,
Qoşaydı nəğmə Üzeyir,
Bir-birinə bənzəyir
Gözəl İzmir, gözəl Bakı.

Bu nə küydür, bu nə haydır,
Ulduzlar alay-alaydır,
Biri günəş, biri aydır
Gözəl İzmir, gözəl Bakı.

Yabançılar darılmasın,
Doğma bağlar qırılmasın,
Bu dünyada ayrılmasın
Gözəl İzmir, gözəl Bakı.

1985

QARDAŞ, OLMAZ

Duyğuları sazaq olan,
Hissləri his-pasaq olan,
Yaxınları uzaq olan,
Qardaşına sirdaş olmaz.
Olmaz, qardaş! Qardaş, olmaz!

Özündən bəhs edənlərdən,
Bir ucdan üyüdənlərdən,
Öz xeyrini güdənlərdən,
Əyri yolla gedənlərdən,
Yoldaşlara yoldaş olmaz.
Olmaz, qardaş! Qardaş, olmaz!

Eliylə vəcdə gəlməyən,
Ocağıyla yüksəlməyən,
Ana dilini bilməyən,
Xəcalətindən ölməyən,
Adamlardan yurddaş olmaz.
Olmaz, qardaq! Qardaş, olmaz!

1985

MƏRDLƏR, NAMƏRDLƏR

Dünyadakı dərdləri
Çəkər dünya mərdləri.
Mərdlərin göz yaşları
Güldürər namərdləri.

* * *

Könül qürbət elə yar ola bilməz,
Qəribin ürəyi bir yumaq kimi.
Şair, ocağından ayrıla bilməz,
Qaynağından çıxan bir irmaq kimi.

* * *

Sevda bulağından su içər şairin ömrü,
Sevməklə, sevilməklə keçər şairin ömrü.

* * *

Oğulları ölən yaslı analar
Boşluqla üz-üzə duran aynalar...

* * *

Sən ey Odlar yurdu,
Torpağın oddandır!

Hər dərən, hər yamacın,
Hər dağın oddandır!

Odla çarpar qəlbin,
Qaynağın oddandır!

Yandırar yad əlini,
Bayrağın oddandır!

1985

* * *

Bu yurddan çağlayardı bir zamanlar
Davullar, zurnalar, sazlar, kamanlar.
Çalınca, kükrəyərdi qəhrəmanlar,
Davullar, zurnalar, sazlar, kamanlar.

Nə zövq almış ulusdan duyğusuzlar?!
Görünsün Qorqud avazlı oğuzlar.
Ucalsın türkülər, udlar, qopuzlar,
Davullar, zurnalar, sazlar, kamanlar

1985

* * *

Yurddaşım, könlümün səsini dinlə,
Dinləsən, bilərsən mən nə istərəm.
İstərəm hər zaman şeirlərimlə,
Ulusu göstərəm, yurdu göstərəm.

* * *

Yaşayar şair olanlar ölümündən sonra,
Gözünü yer üzünə yumduğu gündən sonra.

* * *

Sən, Rəfiq, ən ulu sevdaya düşənlərdənsən,
Ulus uğrunda qələmlə döyüşənlərdənsən.

* * *

Ocaq bir odlu bulaqdır,
Tükənməz, aləm içsə də.

Ocaqsızlara inanmam,
Yerə göyə and içsə də.

Ocağa bağlanmalıdır
Hər insan oğlu; gecsə də.

Alovlanacaq sevgisi,
Şair dünyadan köçsə də.

Ocaq fərəh doğurmalı,
Kədərsə də, sevincsə də.

Ocağı görərəm, gözüm
Günəşi güclə seçsə də.

Ocağa doğru gedərəm.
Yerimək mənə gücsə də.

Gəlsin bir sürü düşmənim,
Ocağım almaz heç zədə.

Canımı qurban verərəm
Ocağa, canım heçsə də.

Bu ocaq ömrümdür mənim,
O keçməz, ömrüm keçsə də!

1971

* * *

Çağlayan hisslərimin cəngi qopuzdur, uddur,
Mənim ömrüm, günüm aləmdə ulusdur, yurddur.

Ulusum, yurdum üfüqlərdə alovdur, oddur.
Rəfiq onlarsız ömürlük ulayan bir qurddur.

* * *

Gərək insan olan çalışa gündə,
Çalışan ərənlər sırasındadır.
Ölüm hər kəs üçün bu yer üzündə
Bu günlə sabahın arasındadır.

* * *

Ulusuyla öyünənlər ulusuyla sevinər,
Yurdunun carçısı yurddaşlara candan güvənər.

* * *

Ulusumdur insanlığın aynasında qalan ulus,
Ulusumdur Füzulisi, Üzeyiri olan ulus.

* * *

Ey Xəzər, dalğalarınla dəli könlümsən sən,
Ey Bakı, ömrümü nurlatmısan, ömrümsən sən.

* * *

Anadan iblis olan insan yox,
İçi xalis pis olan insan yox.

* * *

Su ilə canlanır bu torpaq ana,
İnsanlar, canlılar bağlıdır ona.
Yarpaqsız, çiçəksiz, otsuz olmasın,
Havasız olmasın, odsuz olmasın!

* * *

Dünya gözəlləri bəzəyib saysız əlləri,
Dünyaya dağ çəkibdir o dünya gözəlləri.

* * *

İnsanın qüdrəti öyrənməkdir,
Diləyi, xilqəti öyrənməkdir.

Ülfəti, söhbəti öyrənməkdir,
Əməli, zəhməti öyrənməkdir.

İnsanın şöhrəti öyrənməkdir,
Ən böyük sərvəti öyrənməkdir!

* * *

Könlümə doldu ayrılıq, qardaş,
Olmaz olsun bu ayrılıq, qardaş!

* * *

Dənizin ruhu var fəğana gələr,
Ən böyük canlıdır, dəniz, oğlum.
İnsana bağlıdır, inan ki, ölər,
Getsə sahillərindən iz, oğlum!

* * *

Ulu dağlarda gur bulaqlar var.
Heç zaman sönməyən ocaqlar var.
Sıldırımlardan ildırım ürkər,
Dağların arxasında dağlar var!

* * *

Bu körpə dadlı körpədir,
Mələk qanadlı körpədir.

Çiçəkdir incə əlləri,
İpəkdir incə telləri.

Bu körpə incə körpədir,
Ətirli, qönçə körpədir.

Baxışları nə mutludur,
Sevinclidir, umutludur.

Deyir bu körpə sizlərə:
Yazıq bu körpəsizlərə!

* * *

Ölümtək zamansız nədir?
Ölümdən imansız nədir?!
Ölüm kimsəyə acımaz,
Ölümdən amansız nədir?!

BİR ŞEY OLMASIN

Bir həyat var, bir ölüm var,
Ölümdən betər, zülüm var,
Ulus adlı bir gülüm var,
Gülümə bir şey olmasın.

Yer üzündə dürlü dillər,
Dilsiz ötərmi könüllər?!
Dilim qurusun, ay ellər,
Dilimə bir şey olmasın.

Nədir bu ürəyimdəki,
Umulmaz diləyimdəki?
Hər şeyə razıyam, təki
Elimə bir şey olmasın!

* * *

Kədər gələndə çən gələr,
Kədər qocaldar insanı.
Kədər nədir, bilən bilər.
Kədər ucaldar insanı.

* * *

Azadlıq ilə zəfər çalırlar,
Onsuz yaşayanlar alçalırlar.
Azadlığ pulla almaq olmaz,
Azadlığı can verib, alırlar...

ZAMAN

Ürək diləklə çağlayıb,
Zaman-zaman gərək vura.

Ulusdaş istəməzmi ki,
Ulusla toy-busat qura?!

Zaman keçir, yaman keçir,
Günəş doğur, duman keçir.

Zaman durarmı bir zaman?
Zaman saat deyil dura!

* * *

Ölümü dərd edənin dərdi böyük, qorxaqdır!
Ölümü dərd edən insan nə qədər maymaqdır!

Bu həyatda ölümü adlamayanlar sağdır,
Ölümü adlamaq olmaz, bir aşılmaz dağdır.

* * *

Bu dünya bir nağıl kimi,
Az gedirik, üz gedirik.

Kimimiz hay-küy qoparır,
Kimimiz səssiz gedirik.

Ürəyimiz səma olur,
Eşqimiz dəniz, gedirik.

Bizdən qalır çağdaşların
Xəyalında iz, gedirik.

İllər gəlir illər üstə,
İllər gəlir, biz gedirik.

* * *

Neçə yerə haçalanıb bu dünya,
Təlaşların təlaşçısı olmalı.
Ölkə-ölkə parçalanıb bu dünya,
Bu dünyanın bir başçısı olmalı!

* * *

Həyatı gözdən salan düşüncələr boyatdır,
İnsanın həyatının yaraşığı, həyatdır!

ÖLƏNDƏN SONRA

Yaşadar könlümü ilham, qarışar şerə başı,
Yaşayar şair olan kəslər, öləndən sonra!

Yurd olar daima dünyada sevinci, təlaşı,
Ulus, eşqiylə onu bəslər, öləndən sonra.

Sağlığında gülər ovqatı, çatıldıqca qaşı,
Ona aşiqlər onu səslər, öləndən sonra.

Yaşayar xatirələrdə ululara yanaşı
Ruhu, vicdanı müqəddəslər, öləndən sonra.

GÜNƏŞ KİMİ

Bu dünyaya bahar kimi gələnləri,
Necə duymaz bu dünyanın ərənləri?!

Ürəkləri alov saçar atəş kimi,
Diləkləri qönçə açar günəş kimi.

Göy üzündə günəş kimi yananları,
Necə duymaz, yer üzünün insanları?!

GÜNDƏLİK YAZILAR

Gündəlik mətbuat – sağ şairlərin!
Ölən şairlərin əsəri çıxmır.
Dövri mətbuatda dağ şairlərin
İmzası görünmür, xəbəri çıxmır.

Nizami, Nəsimi, Füzuli vaxtı
Nə qəzet var idi, nə də ki jurnal.
Bizim şairlərin gətirdi baxtı,
Qəzetlə, junralla dolub hər mahal.

Həyatdan tarixə köçən ərənlər,
Efirdə bizimlə çıxış edirmi?
Nə deyir, onlara könül verənlər,
Ellərlə görüşə onlar gedirmi?!

Gündəlik elanlar onların deyil,
Təzə mövzuları yoxdur onların.
Təltiflər, fərmanlar onların deyil,
Bayram arzuları yoxdur onların.

Fəqət, o dahilər könül oxşayır,
Əsrlər adlayan əsərləriylə.
Sən ey mətbuatdan gileyli şair,
Nə coş, nə üz-göz ol, nə qəhər eylə!

Qəzetdə, jurnalda şerimiz çıxır.
Bu dövran bizimdir, bu fürsət bizim.

Yazımız çıxınca, xeyrimiz çıxır,
Sabahsa nə jurnal, nə qəzet bizim!

Hər gün üz tuturuq saysız yerlərə,
Hər yerdə vurulur bizə çəpik də.
Misli görünməyən cəvahirlərə,
Dahilər almadı qara qəpik də.

Sənət bir bədii gözəllik kimi,
Sənətkar ilhamı xalqa xitabdır,
Gündəlik yazılar gündəlik kimi
Sabah oxunacaq, qalan kitabdır...

GÖYLƏR

Ey şair, göylər sənin sevincin, kədərindir,
Göylərin şeriyyəti göylər qədər dərindir.

YAŞIL

Mən yaşıla vurğunam, sənin yaşıl gözlərin,
Yaşıl gözəlliyidir baharlı gündüzlərin.

Mən yaşıla vurğunam bağçalar, bağlar yaşıl,
Çaylar, göllər, meşələr, dərələr, dağlar yaşıl.

Yaşıl-yaşıl yamaclar şərimin çələngidir.
Mən yaşıla vurğunam, yaşıl murad rəngidir.

RÜZGARLAR, DALĞALAR

Rüzgarlar dalğaların könül sirdaşı olmuş,
Dalğalar rüzgarların ömür yoldaşı olmuş.

BU DAĞLAR

Bu dağlar, göylərə dalar bu dağlar,
Nurunu günəşdən alar bu dağlar.

Duman ağaranda, qaçar dumandan,
Nəhəng bir quş kimi uçar dumandan.

Meylini dağlara salar bu dağlar,
Çağlara qələbə çalar bu dağlar.

Ölümdən, itimdən qorxusu yoxdur.
Varlıqda əbədi qalar bu dağlar.

SONSUZLAŞMAQ

Göydə açdıqca xəyalım yelkən,
Varıram sanki bu sonsuzluğa mən.

Könlümün həsrəti sonsuzluqdur,
Ağlımın heyrəti, sonsuzluqdur.

Ah, bu sonsuzluğa dalmaq nə gözəl,
Ucalıqlarda ucalmaq nə gözəl!

Nə gözəldir, ona candan uymaq,
Nə gözəldir onu candan duymaq!

Ulu sonsuzluğa sevgim sonsuz,
Yıxılar yoxluğa varlıq, onsuz.

Nə gözəldir, axıb ulduzlaşmaq,
Mavilikləri kimi sonsuzlaşmaq.

Sıyrılıb sanki bir altun yaydan,
Adlamaq ərşə günəşdən, aydan.

Aləmin hikməti, sonsuzluqdur,
Bəşərin qüdrəti, sonsuzluqdur!

MİLYONLARIN DİLƏYİ

Yer üzündə pusqudadır min silah,
Hər gün artır milyonların təlaşı.

Bir zorlunun işlətdiyi bir günah,
Yurddan edir neçə-neçə yurddaşı.

Qovğalarda günlərimiz gərgin, ah,
Nələr saxlar insanlığın yaddaşı.

Diləkləri olunduqca sürgün, ah,
Selə dönər anaların göz yaşı.

Bitəcəkmi, bu dünyada bir gün, ah,
İnsanların insanlarla savaşı?!

ÖYÜN

Yurdda bir zəhmətin olubsa, öyün,
Ulusa xidmətin olubsa, öyün!
Sərvətin, ziynətin nə xeyri sənə?
Qiymətin, hörmətin olubsa, öyün!

ŞAİRİN

Şairin sevgisi yurd, tanrısı xalq,
Təkliyə uymaz o, gerçəklikdə
Yaşar insanlar içində, ancaq,
Nə yaratsa, yaradar təklikdə.

DƏRSLƏR

"Bitirdim dərsləri – söylədi Xəndan;
Olarmı sahilə çıxaq, ay ata?
Yazırsan, pozursan günəş çıxandan,
Dərslərin bitəcək nə vaxt, ay ata?.."

Əlimdə qələmim döndü suala,
Önündə qapandı dəftərim mənim.
Dedim: "Geyin gedək, dur gedək, bala,
Gedək, bitən deyil dəsrlərim mənim..."

VƏTƏN SEVGİSİ

Vətən sevgisiylə kama yetmişik,
Vətənsiz insanın mənliyi çılpaq.
Vətən anaların ötdüyü beşik,
Vətən ataların yatdığı torpaq.

DALĞALAR

Bir dalğanın ayrılıqda adı yox,
Birləşdikcə dalğalardır adları.
Dalğaların ögeyi yox, yadı yox,
Kükrəyincə aşırmazmı, yadları?!

ULU SEVGİ

Ulu sevgisidir məcnun könlümün,
İlahi bir Leyli Azərbaycanım!

Dünyada ərdəmli yurddaşlarından,
Olmayıb gileyli Azərbaycanım!

Böyük bir ulusun böyük yurdudur
Quzeyli, güneyli Azərbaycanım!

DADMAQ LAZIM

Gəlir insanlar, oğul, getmək üçün,
Dərdini çəkmək üçün dağ lazım.
Yaşamaq zövqünü hiss etmək üçün,
Ulusun zövqünü duymaq lazım.

DEYİB

Mənə anam laylanı ana dilində deyib,
Gərək insan dünyanı qana dilində, deyib.

BAYQUŞU SUSDUR

Tarixdə qalan bir ulusa düşmən olanlar
Kimlərdir, oğul? Məsləki, vicdanı yalanlar!
Ərdəmlilərə böhtan atıb, sözlə çalanlar
Kimlərdir, oğul? Bir dağınıq tayfa olanlar!
Kim söyləsə ki, bir dağınıq tayfa ulusdur,
Bayquşdur o, qoyma ulasın, bayquşu susdur!..

DƏNİZDİR

Çocuqluqdan vuruldum, mənim sevgim
dənizdir,
Dəniz aydın, dəniz göy, dəniz göydən
təmizdir.

Üfüqdən güzgü tutmuş, Günəş, Ay uldaz onda,
Su onda, torpaq onda, səfa onda, duz onda.

O gah dalğın, gah odlu, o gah çılğın, gah üzgün,
O gah gizlincə ağlar, o gah çağlar bütün gün.

Çağıldar ney, kaman, tar, qopuz, ud, saz
dənizdən,
Nə şairdir, o şair ki, zövq almaz dənizdən?!

Sönər bağrında, göydən düşərsə ildırımlar,
Çaxar şimşəklər, açmaz alovlardan
şırımlar.

Dəniz min əjdahanı yenən bir əjdahadır,
Ölümsüzdür, ölümsüz, ölümsüz bir dühadır.

O bir şair ki, şeri cəvahirdir, cəvahir,
Alar şairlər ilham, nə şairdir o şair?!

Bu şairlər içində dəniz dastanlılar var,
Dəniz ilhamlılar var, dəniz ünvanlılar var!

Nə şairdir o şair ki, ondan ilham almaz,
Kim ondan ilham almaz, bu dünyadan kam almaz!

Umulmaz incilər var onun alt qatlarında
Həyat sevdası çağlar dəniz sovqatlarında.

Nə aləmdir o hikmət, nə hikmətdir o aləm,
Təbiətdən böyük bir təbiətdir o aləm.

Dəniz bir kainatdır, dəniz əngin xəzinə,
Dəniz sönməz, tükənməz, o ən zəngin xəzinə.

Nəhəng bir canlıdır, o, qocalmaz bir c: ındır,
Zaman üstündən adlar, zamansız bir cahandır.

Onun sahillərində tələş yox, ürkü yoxdur,
Ömür vadilərində yasaq bir türkü yoxdur.

Onun köksündə çarpan misilsiz qovğalar var,
Dəniz tufansız olmaz, dənizdə dalğalar var.

Dəniz insanlarındır, darılmaz onda heç kim,
Çocuqluqdan dənizdir mənim sahilsiz eşqim.

BİR ÖMÜR

Bir ömür nə qədər sürür, kim bilir?
Nə şair, nə alim, nə həkim bilir!

Bir ömür, deyirik, yaman gödəkdir,
Beş yaşda gömülmək bəs nə deməkdir?!

Qırxa çatmayan da, gödəkdir, deyir,
Yüzü adlayan da gödəkdir, deyir.

Hər kəsin payına bir ömür düşüb,
Toyuna, vayına bir ömür düşüb.

Duyğu bir ömürdür, fikir bir ömür,
Kim bilir, nə qədər çəkir bir ömür?!

Talelər çeşidli, yaşlar çeşidli,
Ürəklər çeşidli, başlar çeşidli.

İnsan var dünyanı alır on ildə,
Adını tarixə salır on ildə.

İnsan var yüz otuz, yüz qırx yaşında,
Keçmişdən bir əsər yoxdur başında.

Bir ildə bir yol da həkim çağırmaz,
Ürəyi ağrımaz, canı ağrımaz.

Anlamaz həyat nə, yer nə, göy nədir;
Bu gerçək içimi yaman göynədir.

Neçin qafalılar az yaşayırlar?
Duyğusu kötüklər saz yaşayırlar?

Neçin çox yaşayır quzğun alamlar,
Göndəmsiz adamlar, pozğun adamlar?!

Kimlərə gərəkdir ömrü onların,
O leş sökənlərin, o quzğunların?

Neçin bu dünyaya gələr, bilinməz,
Neçin ömür sürər, ölər, bilinməz?!

Bir böcək ömrü də sürməzlər onlar,
Burnundan uzağı görməzlər onlar.

Onların burnunu qırmaq gərəkdir,
Başının üstündə durmaq gərəkdir.

Gözü ac, mədəsi tox yaşayırlar,
Kim deyir, alçaqlar çox yaşayırlar?!

Bir ömür yükünü daşımır onlar,
Niyə də ölsün ki, yaşamır onlar?!

1984

GÖZƏLİM DÜNYA

BİR ULUSUN

Bir vətənin dildir ömürdük canı,
Bir ulusun dastanı dildir, oğul!
Dildir, oğul insan edən insanı,
İnsan edən insanı dildir, oğul!

ŞAİR OLANIN

Şair olanın dərdi dinəndə,
Misraları dəhşətə qan ağlar.

Bir dadlı gülüşdən sevinəndə,
İlhamı bulaqlar kimi çağlar.

Şair olanın könlünə dəymək –
Bir körpəni cəllad kimi döymək!..

1985

ƏL ÇALAN

Ulusun düşməninə əl çalan alçaqlardır,
Yapalaqlarla düşüb alçalan alçaqlardır.

* * *

Həyat dolu insanlığın içində,
Biz ölümdən qorxmalıyıq neçin də?!

ULU ŞAİRLƏR

Ulu sənət bir ocaqdır, sönə bilməz, yanacaq,
Bir gülüstan ki, xəzan yelləri əssin, solmur.
Duymayanlar da, duyanlar da ölürlər, ancaq
Yaşayırlar da, duyanlar da ölürlər, ancaq
Yaşayırlar, ulu şairlərə bir şey olmur.

EY ŞAİRLƏR

Ey şairlər, şeirdir
Bu dünyada səcdəniz,

Sahilsiz eşqinizdir
Yurdunuza müjdəniz.

Ruhunuzda aylanır
Mavi şəfəqlərdən iz.

Töhfəniz bir dənizdir,
Suyu içilən dəniz.

1985

* * *

Ağ günlər eşqinə oda yananlar,
Bilməz yer üzündə qaranlıq nədir.
Bədbəxtlik önündə mərd dayananlar,
Gözəlim, dünyanın ən xoşbəxtidir.

* * *

Hər kəsin dünyada öz dünyası var,
Sənət dünyası var, söz dünyası var.
Dünyada könülsüz yaşamaq olmaz,
Könül dünyasının yüz dünyası var.